**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**

---

**BİOFİZİKA İNSTİTUTU**

# 2018-Cİ İLDƏ ELMİ VƏ ELMİ - TƏŞKİLATİ FƏALİYYƏT HAQQINDA

# H E S A B A T

**BAKI – 2018**

2018-ci ildə fundamental xarakterli elmi-tədqiqat işlərinin yerinə yetirilməsində AMEA-nın 2 müxbir üzvü, 3 elmlər doktoru, 5 fəlsəfə doktoru, 21 elmi işçisi iştirak ediblər. Əməkdaşların ümumi sayı 57 nəfərdir.

Elmi-tədqiqat işləri **1 istiqamət**: **Bioloji sistemlərin fiziki-kimyəvi əsasları** istiqaməti üzrə yerinə yetirilir. Bu istiqamətə daxil olan **1 Problem: Bioloji sistemlərdə struktur-dinamika-funksiya əlaqələri** problemi və bu problemə daxil olan 2 mövzu, 5 iş və 4 mərhələ üzrə elmi-tədqiqat işləri aparılır.

**İnstitutun elmi strukturuna 4 laboratoriya, elmi yardımçı şöbə, xarici əlaqələr şöbəsi, ictimaiyyətlə əlaqələr şöbəsi daxildirlər.**

1. **Biomolekulların strukturu, dinamikası və funksiyası** laboratoriyası
   Rəhbər: AMEA-nın müxbir üzvü, prof. Qasımov Oktay Kazım oğlu
2. **Molekulyar və hüceyrə biokimyası** laboratoriyası
   Rəhbər: b.ü.e.d. Qasımov Kərim Quli oğlu
3. **Ekoloji biofizika** laboratoriyası
   Rəhbər: b.ü.e.d., prof. Hüseynov Tokay Məhərrəm oğlu
4. **İnteqrativ biologiya** birgə laboratoriyası
   Rəhbər: AMEA-nın müxbir üzvü, b.ü.e.d. Şahmuradov İlham Əyyub oğlu

Hesabat ilində Biofizika İnstitutunda ilk növbədə Azərbaycan Respublikası Prezidentinin fərman və sərəncamlarının, Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarının, AMEA-nın RH qərar və sərəncamlarının, habelə dövlət proqramlarının icrası ilə əlaqədar irəli gələn vəzifələr icra olunmuşdur.

Bu məqsədlə:

- Azərbaycan Respublikasında “Sənayenin İnkişafına dair 2015-2020-ci illər üçün Dövlət Proqramı”-nın AMEA-ya tapşırılmış vəzifələrin icra olunmasına dair məlumat hazırlanıb AMEA-nın uyğun şöbələrinə təqdim edilmişdir;
- “Azərbaycan 2020: gələcəyə baxış” İnkişaf Konsepsiyası çərçivəsində 2018-ci ilin birinci yarımilində həyata keçirilmiş elmi-tədqiqat və təşkilat işləri icra olunub, görülən işlər və aparılan tədqiqatlar haqqında hesabatlar hazırlanaraq AMEA-nın uyğun şöbələrinə təqdim edilmişdir;
- “Azərbaycan Respublikasında biznes mühitinin əlverişliyinin artırılması və beynəlxalq reytinqlərdə ölkəmizin mövqeyinin daha da yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 13 iyul tarixli 2199 nömrəli Sərəncamının həyata keçirilməsinə dair tədbirlər planı AMEA-nın uyğun şöbələrinə təqdim edilmişdir.
- AMEA RH 22 sentyabr 2017-ci il tarixli 10/2 №-li qərarı ilə təsdiq edilmiş əlavə 1: Azərbaycan Respublikası iqtisadiyyatının əsas sektorları üzrə strateji yol xəritələrindəki tapşırıqların icrası üzrə AMEA-nın Tədbirlər planı ilə bağlı məlumat hazırlanıb AMEA-nın uyğun şöbələrinə təqdim edilmişdir.